


## XXXIII Paris Yay Olimpiya Oyunları




# "Olimpiya Evi"ndə görüş

**XXXIII Yay Olimpiya Oyunları çərçivəsində Parisdə fəaliyyət göstərən "Olimpiya Evi"ndə Azərbaycan idmançıları ilə görüş keçirilib.**

Görüşdə gənclər və idman naziri Fərid Qayıbov, nazir müavini Mariana Vasileva, Azərbaycan Cüdo Federasiyasının prezidenti Rəşad Nəbiyev, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, baş katibi Azər Əliyev, Azərbaycanın UNESCO-dakı səfiri Elman Abdullayev, Olimpiya və dünya çempionları, eləcə də Olimpiadada ölkəmizi təmsil edən idmançılar, onların məşqçiləri, media nümayəndələri, müxtəlif ölkələrin rəsmi nümayəndələri və digər şəxslər iştirak ediblər.

Tədbir iştirakçıları arasında Olimpiya Oyunlarının qızıl medalını qazanmış Hidayət Heydərov diqqət mərkəzində idi. Tədbir iştirakçıları çempionla söhbət etməyə can atırdılar.

İdmançılarımızla görüşə gəlmiş Marselen Dali (Marcellin Dally) beynəlxalq təşkilatın rəsmisi olsa da, tədbirdə məhz Azərbaycanın dostu kimi iştirak etdiyini bildirib. Dali idmançılarımıza yeni qələbələr qazanmağı arzulayıb.

Tədbir çərçivəsində "Olimpiya Evi"nin qonaqlarına ölkəmizin Olimpiya tarixindən, mədəniyyətindən, eləcə də Olimpiya Oyunlarında iştirak edən idmançılarımızdan bəhs edən nəşrlər nümayiş etdirilib və iştirakçılara hədiyyə olunub.




Tədbirin bədii hissəsi müğənni Mardan Bandın ifasında musiqi nömrələri ilə davam edib. Qonaqlar həmçinin "Olimpiya "Evi"ndə quraşdırılmış monitorda Olimpiadanın 3x3 basketbol yarışlarında Azərbaycan - İspaniya oyununu birlikdə izləyiblər.